**Sabir Bədrəddin oğlu Quluzadə**

**UOT: 338.43; JEL: Q18.**

# Azərbaycan iqtisadiyyatında aqrar mühitin inkişafı

***Xülasə***

*Məqalədə, müəllif qeyd edir ki, Qərb ölkələrində və digər mühüm bazar iqtisadiyyatlı dövlətlərdə məhsul və xidmətlərin keyfiyyətinin artması ilə müşahidə olunan iqtisadi inkişaf, ölkəmizdə keyfiyyət məsələlərinin daha real və səmərəli həllini zəruri edir. Əgər keçmiş Sovet dövründə hər bir məhsulun yüksək keyfiyyətli olmasında ekstensiv amil – yəni keyfiyyətin təminatı üçün əsasən zəruri maddi-texniki resurslardan maksimum istifadə etmək prinsipi mühüm rol oynayırdısa, hal-hazırda bazar sisteminə xas olaraq, məhdud iqtisadi və istehsal resursları şəraitində kəskin rəqabət mübarizəsinə tab gətirmək üçün mövcud resurslardan minimum istifadə prinsipi ilə şərtlənən – intensiv amil böyük əhəmiyyət kəsb edir. Burada, hər şeydən əvvəl minimum məsrəflərlə keyfiyyətin maksimum təmin edilməsi ön plana çəkilir.*

***Açar sözlər**: iqtisadi artım, istehsal xərcləri, iqtisadiyyat, iqtisadi səmərəlilik, kənd təsərrüfatı sektoru.*

## Giriş

Bazar münasibətlərinin inkişafı yolunda məhsul və xidmətlərin zəruri keyfiyyət səviyyəsinin təmin olunması, hər bir təsərrüfat vahidinin fəaliyyətində strateji və mühüm əhəmiyyət kəsb etməlidir. Eyni zamanda, bazar obyektinə - məhsula və ya xidmətə aid edilən əsas cəhət isə onun rəqabətqabiliyyətidir. Azərbaycan iqtisadiyyatının müasir inkişaf mərhələsi bir qayda olaraq, istehsal ilə tələbat arasındakı qarşılıqlı asılılığın güclənməsi ilə müşahidə olunur. Burada, tədricən məhsulun keyfiyyətinin və onun istehsal və istehlak xərclərinin qiymətləndirilməsində istehlakçının rolu artır. Bununla əlaqədar müəyyən olunur ki, istehlakçıların ən ümdə və yetkin tələbatı ümumi istehsalın inkişafına və struktudəyişikliyinə təsir göstərərək istehsal ilə son istehlakçının inteqrasiyasına şərait yaradır.



## Azərbaycanda aqrar sektorun inkişafı

Azərbaycanda həyata keçirilən aqrar islahatlardan ötən iyirmi illik dövrdən sonra bu islahatların nəticələrini qiymətləndirmək indi asandır. Amma bundan öncə ulu öndər bu islahatların aparılması ilə bağlı öz siyasi iradəsini ortaya qoyan zaman dövlətin iqtisadi münasibətlərdə və mülkiyyət üzərində total şəkildə hakim olduğu bir sistemdən, azad bazar münasibətlərinə və özəl mülkiyyətə əsaslanan sistemə keçidlə bağlı nə təcrübə, nə də nəzəri-metodoloji əsaslar mövcud idi. Buna baxmayaraq, ümummilli liderin zəngin idarəçilik təcrübəsinə əsaslanan müdrik qərarı ilə həyata keçirilən aqrar islahatların ölkədə kənd təsərrüfatının dinamik inkişafı üçün möhkəm təməl yaratdığını zaman özü göstərdi. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə uğurla həyata keçirilən davamlı inkişaf strategiyasına uyğun olaraq kənd təsərrüfatı sahəsinin də inkişafında yeni mərhələ başladı. Belə ki, sistemli və dayanıqlı inkişafın dövlət tənzimlənməsinin mütərəqqi bir metoduna çevrilmiş regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində kənd təsərrüfatının inkişafı ilə bağlı yeni mexanizmlər tətbiq olundu. Bu baxımdan regionların sosial-iqtisadi inkişafı siyasəti çərçivəsində kənd yerlərində sosial infrastrukturun inkişafı, kənd təsərrüfatı məhsullarının emalı müəssisələri şəbəkəsinin genişləndirilməsi, fermerlərin istehsal vasitələri ilə təminatının gücləndirilməsi məqsədilə "Aqrolizinq" ASC-nin yaradılması, kənd təsərrüfatı məhsulları istehsalçılarının gübrə, yanacaq və toxumla

*©Sabir Bədrəddin oğlu Quluzadə Azərbaycan Turizm və Menecment Universiteti, müəllim.Email: sa.quluzade066@gmail.com*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

təminatının yaxşılaşdırılması üçün subsidiyaların verilməsi, meliorasiya-irriqasiya sistemlərinin köklü şəkildə yenidən qurulması tədbirlərini xüsusi qeyd etmək lazımdır.

Ölkə həyatının bütün sahələrində inkişaf siyasətinin əsas strateji hədəflərini özündə ehtiva edən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası Azərbaycanın qarşısına daha yüksək inkişaf məqsədlərinin qoyulması və bu məqsədlərdən irəli gələn vəzifələrin müəyyənləşdirilməsi ilə bağlı Prezident İlham Əliyevin siyasi iradəsinin ifadəsidir. Azərbaycanın yeni inkişaf hədəflərinin reallaşdırılması məqsədilə kompleks islahatların aparılmasını nəzərdə tutan bu konsepsiyada kənd təsərrüfatının gələcək inkişaf istiqamətləri də əhatəli şəkildə öz əksini tapmışdır. Kənd təsərrüfatının inkişafı ilə bağlı müəyyən olunmuş konseptual istiqamətlərin reallaşdırılması məqsədilə artıq Prezident tərəfindən "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" 16 yanvar 2014- cü il tarixli sərəncam və "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" 16 aprel 2014- cü il tarixli fərman imzalanmışdır. Tarixi əhəmiyyətli bu siyasi qərarlarla aqrar sektorun inkişafının prioritet hədəflərinin yeni çağırışlar fonunda müəyyən edilməsi, aqrar sektorda institusional strukturun və idarəetmənin təkmilləşdirilməsi və innovativ dəyişikliklərə təkan verəcək digər tədbirlərin həyata keçirilməsinə göstəriş verilməsi bu sahədə inkişafın keyfiyyətcə yeni mərhələsinə keçid üçün əsas yaratmışdır.

Ölkə iqtisadiyyatının şaxələndirilməsi strategiyasının əsas istiqamətlərindən biri kimi aqrar sektorun inkişafı respublikamızda ərzaq təhlükəsizliyinin təmin edilməsinə, ixracın maksimum dərəcədə artmasına, kənd təsərrüfatının ölkəyə böyük valyuta gətirən sahəyə çevrilməsinə, regionların simasının əsaslı surətdə dəyişməsinə və kənd əhalisinin güzəranının əhəmiyyətli dərəcədə yaxşılaşmasına böyük töhfələr verir. Son on beş ildə həyata keçirilən islahatlar nəticəsində və görülən işlərin yekunu olaraq kənd təsərrüfatının inkişafında kifayət qədər artım olub. Azərbaycanda həyata keçirilən irimiqyaslı layihələr və davamlı islahatlar kənd təsərrüfatının keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına rəvac verib. Bu sahədə köklü dəyişikliklər baş verib, yeni iqtisadi və mülkiyyət münasibətləri formalaşıb. Normativ-hüquqi baza getdikcə təkmilləşdirilir, idarəetmədə səmərəliliyin və şəffaflığın artırılması üçün elektron kənd təsərrüfatı sistemi tətbiq edilməkdədir. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının uğurlu icrası, fermerlərə maliyyə və texniki dəstəyin göstərilməsi, sahibkarlığın inkişafı, bölgələrdə infrastruktur layihələrinin həyata keçirilməsi regionlarda yeni iş yerlərinin yaradılmasına, işsizliyin aradan qaldırılmasına və ərzaq təhlükəsizliyinin təmin olunmasına böyük töhfələr verib.

Kiçik sahibkarlığın inkişafı sayəsində yeni iş yerləri yaradılır və regionlarda istehsal olunan kənd təsərrüfatı və digər ərzaq məhsullarının vahid brend adı altında daxili və xarici bazarlara çıxarılmasına şərait yaranır, ölkəyə valyuta axını güclənir. Bundan başqa, qeyri-neft sektorunun aparıcı bölməsi olan aqrar sənayenin inkişafı istiqamətində uğurlu addımlar atılır. Bu məqsədlə aqrar sektorun innovativ meyarlara uyğun qurulması, o cümlədən aqroparkların yaradılması sahəsində irimiqyaslı layihələr həyata keçirilir. Ölkə başçısının müvafiq Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin həyata keçirilməsini təmin etmək üçün ciddi addımlar atılır. Hazırda ölkəmizdə əhalinin etibarlı ərzaq təminatı dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir. Aqrar sektorun istər ixrac, istərsə də məşğulluq sahəsində böyük potensialından getdikcə daha səmərəli istifadə olunur. Bu sıraya torpaqlardan səmərəli istifadə, ekoloji təmiz məhsulların istehsalı, ixracın şaxələndirilməsi, "Made in Azerbaijan" brendi ilə xarici bazarlara çıxış kimi amillər müasir aqrar sənaye kompleksinin aydın mənzərəsini yaradır. Pambıqçılığın,



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

tütünçülüyün, baramaçılığın və fındıqçılığın inkişafı istiqamətində atılan addımlar, ölkə başçısının bu sahələrin inkişafı ilə bağlı müvafiq Fərman və sərəncamları aqrar sahədə yüksək nailiyyətlər əldə edilməsində mühüm amilə çevrilib.

**Kənd təsərrüfatında rəqabət mühiti**

Bazarda rəqabət şəraitini bilmədən və öz rəqiblərini "yaxından" tanımadan rəqabətqabiliyyətli məhsul reallaşdırmaq olmaz. Müasir bazarlar üçün isə qeyri-qiymət rəqabəti daha çox xasdır. Qeyd edək ki, əgər qiymət rəqabəti şəraitində rəqabətqabiliyyətliliyi yüksəltmək məqsədilə, təqribən eyni keyfiyyətli əmtəələrə müxtəlif qiymətlər qoyulursa, qeyri - qiymət rəqabəti zamanı isə məhsulun rəqabətqabiliyyətini yüksəltmək üçün onun texniki səviyyəsini artırmaq və istehlak dəyərini yaxşılaşdırmaq kimi tədbirlərə üstünlük verilir. Qeyri-qiymət rəqabəti metodlarına, məhsul çeşidinin diferensiallaşdırılması və müxtəlif dizaynda qablaşdırılması, könüllü sertifikatlaşdırma aparmaqla daha real təminat, mükəmməl reklamın təşkili, ekoloji göstəricilərin yaxşılaşdırılması və s. kimi tədbirlər aid edilir ki, bunlara da ümumi yanaşdıqda, bu, özünü keyfiyyət rəqabəti kimi göstərir. Hər hansı bir məhsulun təhlükəsizliyini, etibarlılığını, ekoloji təmizliyini, qablaşdırılmasını, dizaynını, istehlak üçün münasibliyini, dünya standartlarına uyğunluğunu, yüksək təminatlılığını və s. göstəriciləri əhatə etməklə keyfiyyət, müasir istehlakçı üçün alış zamanı əsas kriteriya olmaqla, həm də firmanın (müəssisənin) bazardakı uğurunu və ya uğursuzluğunu müəyyən edən bir meyardır. Mütəxəssislərin dili ilə desək, "rəqiblər üzrə üstünlüyə hər şeydən əvvəl məhsulun bəyənilmiş (mənimsənilmiş) keyfiyyət sferasında nail olmaq lazımdır. Əgər bu mümkün olsa siz müəyyən bazar payını yenidən əlinizə almış olursunuz. Keyfiyyətdən başlasanız, nəticədə aşağı istehsal xərclərinə nail olmuş olarsınız". Qərb ölkələrində və digər mühüm bazar iqtisadiyyatlı dövlətlərdə məhsul və xidmətlərin keyfiyyətinin artması ilə müşahidə olunan iqtisadi inkişaf, ölkəmizdə keyfiyyət məsələlərinin daha real və səmərəli həllini zəruri edir. Əgər keçmiş Sovet dövründə hər bir məhsulun yüksək keyfiyyətli olmasında ekstensiv amil – yəni keyfiyyətin təminatı üçün əsasən zəruri maddi-texniki resurslardan maksimum istifadə etmək prinsipi mühüm rol oynayırdısa, hal-hazırda bazar sisteminə xas olaraq, məhdud iqtisadi və istehsal resursları şəraitində kəskin rəqabət mübarizəsinə tab gətirmək üçün mövcud resurslardan minimum istifadə prinsipi ilə şərtlənən – intensiv amil böyük əhəmiyyət kəsb edir. Burada, hər şeydən əvvəl minimum məsrəflərlə keyfiyyətin maksimum təmin edilməsi ön plana çəkilir. Lakin, bazar tədqiqatlarına əsaslanmayan keyfiyyətin idarə edilməsi metodları səmərəsiz olmaqla bərabər, rəqabətqabiliyyətli məhsul istehsal etməyə də imkan vermir. Rəqibin ətraflı öyrənilməsi zəruriliyi onun zəif tərəflərini bilib, onları rəqabət mübarizəsi strategiyasının yaradılmasında istifadə etməyə, eyni zamanda isə rəqibin güclü tərəflərini də bilib onları praktikada tətbiq etməyə əsaslanır. Belə ki, rəqibin maliyyə vəziyyətini, onun istehsal və texniki siyasətini, istehsal xərcləri səviyyəsini, ETTKİ-nin istiqamətlərini, bazar strategiyasını, satış metodlarını, qiymət siyasətini və s. kimi iqtisadi amilləri öyrənmək olduqca zəruridir. Bu zaman diqqət yetirmək lazımdır ki, rəqib məhsulların rəqabətqabiliyyəti daha çox hansı amillər hesabına təmin edilir və onlar mövcud bazar tələbinə nə dərəcədə uyğundur. Bazar tələbatının rəqiblər tərəfindən ödənilə bilməyən hissələrinin tapılması, müəyyən istehlakçı tələblərinin "boşluq"-la müşahidə olunan və tam ödənilməyən elə cəhətlərini təyin etməyə imkan verir ki, cari bazara girərkən birbaşa bu cəhətlərə istiqamətlənmək olar. Hər bir təsərrüfat subyektinin reallaşdırdığı məhsulun rəqabətqabiliyyətinə və keyfiyyətinə ayrı-ayrılıqda bir sıra iqtisadi amillər, daxili və xarici olmaqla sözü gedən kateqoriyalara həm birbaşa, həm də dolayı yolla təsir göstərir. Məhsulun keyfiyyətinə təsir göstərən iqtisadi amillər eyni zamanda onun rəqabətqabiliyyətinə də birbaşa və ya dolayı (keyfiyyətə təsir etmək vasitəsilə) təsir göstərərək, qeyd edilən problemlərin vəhdət halında öyrənilməsini zəruri edir. Bu baxımdan,



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

problemi real və praktiki cəhətdən araşdırmaq məqsədilə, məhsulun rəqabətqabiliyyətinə və keyfiyyətinə bu və ya digər dərəcədə təsir göstərən ümumi iqtisadi amilləri birgə qiymətləndirməli, burada hər iki tərəfə meyl edən xüsusi amilləri isə konkret olaraq müəyyənləşdirməliyik. Qeyd edək ki, hər bir müəssisə öz məhsulunun rəqabətqabiliyyətinə təsir edə biləcək bütün iqtisadi amilləri düzgün və kompleks qiymətləndirməli və qeyd edilən problemin həlli üçün ən optimal qərar qəbul etməlidir. Rəqiblərin bazardakı məqsədyönlü davranışına, məsələn, onların qiymət siyasəti və keyfiyyət yönümlü tədbirlərindəki dəyişikliklərə qarşı əks reaksiya vermək məqsədilə firma, ya istehsal keyfiyyət xərclərinin azaldılması və əlavə stimullaşdırma tədbirlərinin görülməsi ilə "müvafiq" cavab reaksiyası verməli, ya da "alternativ" cavab reaksiyası kimi, xüsusi tələb və tələbatın ödənilməsi üçün nəzərdə tutulan, yeni keyfiyyət çalarları və unikallığı olan, həmçinin "orijinal" qiymətlə elə bir məhsul reallaşdırmalıdır ki, özünün mövcud bazar payını əlində saxlaya bilsin. Hər iki halda firma müəyyən resursları səfərbərliyə almalıdır, lakin cavab reaksiyalarının optimal seçimi üçün firma özünün iqtisadi imkanlarını düzgün qiymətləndirməli, bunu dərindən təhlil etməli və ən münasib seçimi etmək üçün qeyd edilən iqtisadi amillərdən nə dərəcədə istifadə olunmasını müəyyənləşdirməlidir. Belə ki, firma qeyd etdiyimiz "müvafiq" cavab reaksiyası zamanı, yəni birinci halda, istehsal – keyfiyyət xərclərini nisbətən azaltmaq üçün müəssisədə əməyin məhsuldarlığını və düzgün təşkilini yaxşılaşdırmaq, işçi heyətini mənəvi və maddi stimullaşdırmaq, istehsalı kəmiyyətcə ixtisara salmaq və əlavə stimullaşdırma tədbirlərinin görülməsi kimi reklamı gücləndirmək, rəqibin "zəif tərəfinə" qarşı hücuma keçmək və s. bu kimi tədbirləri həyata keçirməlidir. Digər "alternativ" cavab reaksiyası zamanı isə, firma öz məhsulunu təkmilləşdirməli, ona yeni "çalarlar" əlavə edib onun keyfiyyət səviyyəsini daha da yüksəltməklə bazardakı "xüsusi" tələbləri ödəməyə çalışmalı və əmələ gələn nisbətən "yeni" (baha və ya fərqli) qiyməti alıcının gözündə əsaslandırmağa səy göstərməlidir. Yəni məhsulun keyfiyyətinin yüksəldilməsindən əldə olunan iqtisadi səmərə həm istehsalçıya, həm də istehlakçıya yetərli olmalıdır. Bu zaman firma, məhsulun keyfiyyətinə təsir göstərən iqtisadi amilləri tam səfərbər etməli və keyfiyyət sisteminin idarə edilməsi işinin aktivləşməsinə və səmərəli gedişinə şərait yaratmalıdır. Lakin diqqət yetirmək lazımdır ki, məhsulun keyfiyyət səviyyəsinin yüksəlməsi maksimum olmaqla, onun qiymət səviyyəsinin artımı minimum olsun. Deməli, keyfiyyətə təsir göstərən ən böyük iqtisadi amil kimi, keyfiyyət məsrəflərinin optimal idarə edilməsi zəruriliyi burada öz əhəmiyyətini tapmış olur. 2014-2018-ci illəri əhatə edəcək yeni "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda da qeyri-neft sektorunun inkişafı, ixracyönümlü və rəqabətədavamlı məhsul istehsalının genişləndirilməsi, sahibkarlığın inkişafı, yol və nəqliyyat infrastrukturunun, rabitə xidmətlərinin, ekoloji vəziyyətin daha da yaxşılaşdırılması, əhalinin təhlükəsizliyinin təmin edilməsi, regionlarda, xüsusilə kəndlərdə kommunal xidmətlərlə təminatının (su və kanalizasiya təminatının, elektrik enerjisi, qaz və istilik təchizatının) daha da yaxşılaşdırılması, təhsil, səhiyyə, mədəniyyət və idman-sağlamlıq obyektlərinin beynəlxalq standartlara uyğun inşası və yenidən qurulması əksini tapmışdır. Proqramda torpaqların su təminatının yaxşılaşdırılması üçün meliorasiya-irriqasiya işlərinin həyata keçirilməsi və yeni torpaqların dövriyyəyə cəlb edilməsi, turizm sahəsinin inkişafı, yeni müəssisələrin açılması, əhalinin məşğulluq səviyyəsinin artırılması istiqamətlərdə tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Ümumiyyətlə, dövlət başçısı İlham Əliyevin son 10 ildə imzaladığı 50-yə yaxın Dövlət Proqramı ölkə həyatının ən müxtəlif sahələrində kompleks islahatların əsasını qoymuşdur. İnkişaf, sosial təminat və strukturyönümlü layihələr ilk növbədə hər bir vətəndaşın layiqli həyat tərzinə, insan hüquq və azadlıqlarının təminatına, dövlət



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

idarəçiliyinin çevik və işlək mexanizmlər əsasında həyata keçirilməsinə - bir sözlə, davamlı və sabit inkişafa xidmət etmişdir [5]. İqtisadi sahədə əldə edilmiş bu nailiyyətlər statistik göstəricilərdə də əks olunur. Qeyd edək ki, ötən müddətdə iqtisadiyyat 3,4 dəfə, sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə artmışdır. Ölkədə 1 milyon 200 min iş yeri açılmışdır ki, onların 900 mini daimi iş yeridir [1]. Yoxsulluq təqribən 50 faizdən 5,3 faizə düşmüşdür. İşsizlik 5 faiz təşkil edir. Bu göstəricilərə görə, Azərbaycan hətta inkişaf etmiş ölkələri qabaqlayır. Xarici dövlət borcumuz 8 faiz təşkil edir ki, bu da dünya miqyasında ən yüksək göstəricidir. Son on ildə ölkəmizə 160 milyard dollar investisiya cəlb edilmişdir. Son illərdə sərmayənin həcmi daha da artır. Ötən il bu göstərici rekord səviyyəyə çatmışdır, Azərbaycan iqtisadiyyatına 28 milyard dollar sərmayə qoyulmuşdur. Daxili sərmayələr xarici sərmayələri üstələmişdir və adambaşına düşən birbaşa xarici sərmayələrin qoyuluşuna görə Azərbaycan MDB məkanında ön sıralardadır.

**Nəticə**

Həyata keçirilən sistemli və ardıcıl tədbirlər nəticəsində Azərbaycan sosial-iqtisadi inkişafın yeni mərhələsinə qədəm qoymuş, regionun aparıcı güc mərkəzinə çevrilmişdir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının əsas hədəflərinin reallaşdırılması ilə bağlı ardıcıl və zəruri tədbirlər həyata keçirilir ki, bu da növbəti illərdə ölkəmizin davamlı inkişafını, dünyada mövqeyinin daha da möhkəmlənməsini və xalqımızın sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşmasını təmin edəcəkdir.

**Ədəbiyyat**

1. Azərbaycan Statistik Göstəriciləri, ADSK, Bakı, 2017.
2. Bəyalı Ataşov Aqrar sahədə struktur və səmərəlilik problemləri Bakı-2017.
3. Xəlilov H.A. Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri. Bakı, «Adiloqlu», 2001.
4. Ə. Əlirzayev. Iqtisadiyyat: düşüncələr, baxışlar. Bakı, 2002.
5. Axundov Ş, Axundov M. Bazar iqtisadiyyatının əsasları. Qısa izahlı lüğət. Bakı, 2001.



***Сабир Бадраддин оглы Гулузаде***

***Развитие аграрной среды в экономике Азербайджана***

***Резюме***

*В статье автор отмечает, что экономическое развитие, наблюдаемое ростом качества продукции и услуг в западных странах и других важных государствах с рыночной экономикой, делает более реалистичным и эффективным решение вопросов качества в нашей стране. Если в прошлые советские времена в обеспечении высокого качества каждой продукции важную роль играл экстенсивный фактор – то есть принцип максимального использования в основном необходимых материально-технических ресурсов для обеспечения качества, то в настоящее время интенсивный фактор, свойственный рыночной системе, обусловленный принципом минимального использования имеющихся ресурсов для преодоления острой конкурентной борьбы в условиях ограниченных экономических и производственных ресурсов, имеет большое значение. Здесь на первый план ставится, прежде всего, максимальное обеспечение качества с минимальными затратами.*

***Ключевые слова:*** *экономический рост, производственные затраты, экономика, экономическая эффективность, сельскохозяйственный сектор.*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Sabir Badraddin Quluzade***

***Development of Agrarian environment in Azerbaijan economy***

***Summary***

*In the article, the author notes that the economic development observed with the increase in the quality of products and services in Western countries and other important market economies necessitates a more realistic and efficient solution of quality issues in our country. If in the former Soviet period, the principle of maximum use of the necessary material and technical resources for the provision of quality played an important role in the high quality of each product, the intensive factor, which is currently inherent in the market system, is of great importance in order to withstand the fierce competition in conditions of limited economic and Here, first of all, the maximum provision of quality at minimum costs is put to the fore.*

***Keywords:*** *economic growth, production costs, economy, economic efficiency, agricultural sector.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 24.02.2020.***
***Çapa qəbul olunub: 28.02.2020.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*